**Rəşid İsmayıl oğlu Mahmudov respublikamızın ictimai-siyasi və elmi-mədəni həyatında, eləcə də Azərbaycan jurnalistikasının inkişafında misilsiz xidmətləri olan şəxslərdəndir. Bu gün nəcibliyin və halallığın rəmzi kimi tanıdığım, sevdiyim o böyük insanın dünyaya gəldiyi gündür.**

*Rəşid Mahmudov - 90*

# Vətənini sevən böyük insan...



**Sona ÇƏRKƏZ**
*Bakı Dövlət Universitetinin baş müəllimi, Azərbaycan Yazıçılar Birliyinin üzvü, "Qızıl qələm" media mükafatçısı*

Düz doxsan il bundan əvvəl İsmayıllı rayonunun Mican kəndində müəllim ailəsində doğulub. Anadan olmasının 70 illiyini sağlığında ikən yaxınları, dost-tanışları qeyd etmək istəmişdi. Bu böyük vətənpərvər insan etiraz edib və deyib: "Qarabağ kimi düyünə düşən dərdimiz olan bir vaxtda mənim ürəyim belə tədbirləri götürməz...".

Dəyişməz xarakter və əyilməz iradə sahibi olması Rəşid Mahmudovu tanıyan hər kəsə məlumdur. Xalqına, vətəninə etibarı, sədaqəti və ən əsası da paklığı Allahdan onun boyuna biçilmişdi, sanıram. Hər bir insanın həyatında yerə-göyə sığdıra bilmədiyi, adını dilindən düşürmədiyi, ürəyindən ata bilmədiyi elə dostu olur ki, onun adına qardaş deməkdən, onu qardaş bilməkdən başqa doğma söz tapa bilmirsən. Həyatında elə insan saflığın, güvənin ünvanına çevrilir sənin üçün. Peşəsinə vurğunluğu, ailəcanlılığı, səmimiyyəti, ona maddi-mənəvi ehtiyac duyanlara dayaq olmağı əslində cümlələrə sığmır. Rəşid Mahmudov çoxları üçün məhrəm adam idi, mərd insan idi, sözün böyük mənasında azərbaycanlı idi. Çox təəssüf edirəm ki, bu gün onun barəsində keçmiş zamanda danışıram. Əslində mən çox sevdiyim, illərlə özümü o ailənin üzvü bildiyim insan haqqında nə danışıramsa-danışım, hansı ilə, aya, günə üz tuturamsa-tutum, sanıram ki, istədiklərimi tam ifadə edə bilməyəcəm. İnsan var ki, onun haqqında söyləmək istədiklərini ifadələrə, sözlərə sığışdırmaq olmur. Elələri Tanrı dərgahına yüksəldikdən sonra da yoxluğunu varlığa çevirərək onsuz yaşayanları, arxasında qoyduqlarını ömür yolunda saldığı iz ilə getməyə vadar edə bilir. Rəşid Mahmudov kimi insanlar ölçülü-biçili yaşantısı, mərhəmətli qəlbi ilə mənsub olduğu məmləkətinin, xalqının, elinin, obasının fəxrinə-fəxarətinə çevrilə bilirlər.

Xatirələr çözüldükcə, Rəşid əmini düşündükcə illər məni atalı günlərimə apardı. Atam Məmməd Məmmədovun qardaşı olmayıb, tək olub. Lakin Tanrım ona ömrün bəlli bir yaşında elə bir qardaş əvəzi dost nəsib eləyib ki... biz qardaş-bacılar Rəşid Mahmudovun timsalında Əmi tapdıq. Rəşid əminin həyatımın ağrılı dönəmlərində mənə ünvanladığı təsəlli məktubundan bir neçə cümləni qeyd etməklə fikrimi təsdiqləmək istəyirəm:

"Sona xanımın atası Məmməd müəllimlə 80-ci illərin əvvəllərində xəstəxana şəraitində tanış olmuşam. O, uzun illər hüquq-mühafizə sistemində mühüm vəzifələrdə çalışıb, mənim rəhmətlik qardaşım Fikrətlə çörək kəsib, dostluq edib. Tanış olduğum vaxtdan Məmməd Məmmədovun şəxsində sözün əsl mənasında səmimi dostun, dəyanətli insanın necə olduğunu gördüm. Biz dost deyil, qardaş olduq. Yetmiş illik həyatımda çox adamla ünsiyyət etmişəm. Məmməd müəllimin gözəl bir sözü var - "mən özümə dostu şan-şöhrətə görə deyil, saf qəlbə, insani dəyanətə və böyük ürəyə görə seçirəm". Belə bir insanla dost-qardaş olmağımla sözün böyük mənasında fəxr edirəm. Məmməd kişinin övladı - Sona balam mənə əmi deyəndə, qapımdan girəndə qəlbim riqqətə gəlir, mənəvi təsəlli tapıram. Mən də, ömür-gün yoldaşım Məhbubə xanım da onu çox istəyirik...".





Görkəmli ictimai xadim, respublikanın Əməkdar jurnalisti, "Qızıl qələm", "Kamil Sənətkar", "Ustad" ali jurnalistika mükafatları, "Həzi Aslanov adına mükafat"la və bir çox başqa fəxri adlarla, eləcə də keçmiş SSRİ Jurnalistlər İttifaqının medal və diplomları ilə təltif olunan Rəşid Mahmudov irimiqyaslı tədbirlərin iştirakçısı da olub.

Tanınmış yazıçı-publisist, Azər KİVİHİ-nin fəxri üzvü, Azərbaycan Yazıçılar və Jurnalistlər birliklərinin üzvü, Azərbaycan Respublikası Ali Sovetinin dəfələrlə deputatı seçilmiş Rəşid Mahmudov kimi qələm sahibi haqqında söz demək mənə həqiqətən çox çətindir. Əslində mənə yaxşı tanıdığım insan haqqında söz demək ona görə çətindir ki, çox xatirələri var məndə o əvəzsiz insanın və fikrimi haradan başlayıb, harada tamamlayacağımı bilmirəm. Çünki Rəşid əmi illərlə ən çətin və kədərli günlərimdə mənə hər mənada çox təsəlli verən, yol göstərən, səbr diləyən əsl əmi olub...

Tez-tez vəzifədən-vəzifəyə yüksəlsə də, kreslolarda dəyişilən insanlardan fərqli olaraq, Rəşid müəllimin xarakterində olan insanlıq, xeyirxahlıq, təvazökarlıq heç dəyişmədi. Onun ən böyük vəzifəsi insanlığa və insanlara sadiq qalması idi. Mən Rəşid əminin mətbuat naziri olduğu vaxtda da rəhmətlik həyat yoldaşım, BDU-nun dosenti Çərkəz Quliyevlə onun iş yerində olmuşdum. Bu görüşümüzdə Xalq şairimiz Nəriman Həsənzadə də var idi. Böyük idarələrdə də qapıları taybatay hər kəsin üzünə açıq olan, insanlara cani-könüldən yanaşan, ona üz tutanlara ümid verən, ehtiram göstərən əvəzsiz biri idi Rəşid Mahmudov.

Rəşid əmi bir müsahibəsində hansı sözləri sevirsiniz sualının cavabında deyib: "Vətən, insaf, vicdan, inam, iman. Bir də insanı yaşadan, ömrünə zinət verən sözlər deyil, vətənə sevgi, vətənin rifahı naminə çalışmaqdır".

Rəşid İsmayıl oğlu Mahmudov - mənim əmim belə yaşadı! Bütün bunlardan sonra nə isə demək, nə isə əlavə etmək, sanıram ki, artıq olar. Ruhun şad olsun, əziz əmim!